

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti** *1933-cü ildən nəşr olunur*

**№ 70-71 (7307-7308)** ✲ **Çərşənbə axşamı, 6 oktyabr 2015-ci il** ✲ **Qəzet ayda 4 dəfə çıxır** ✲ **Qiyməti 40 qəpik**


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Serbiya Respublikası Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Ljajicin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Serbiyanın yaxın perspektiv üçün iqtisadi əməkdaşlıq imkanları nəzərdən keçirilib.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev sentyabrın 29-da Türkmənistan Respublikası Baş nazirinin müavini Baymurad Xosamuhəmmədovu qəbul edib. Görüşdə dövlətlərimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsi məsələləri müzakirə olunub.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Məkkə şəhərində Həcc ziyarəti zamanı yaranmış qarışıqlıq nəticəsində çox sayda zəvvarın həlak olması ilə əlaqədar iki müqəddəs ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda başsağlığı teleqramı göndərib.

✲ ✲ ✲

Ölkəmizin başçısı 29 sentyabrda görkəmli Azərbaycan sərkərdəsi general Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

✲ ✲ ✲

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa İttifaqının cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hazırki vəziyyəti və perspektivləri Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Dünya Skaut Komitəsinin sədri Joao Amaudo Qonsalvesi və təşkilatın baş katibi Skot Teareni qəbul edib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Rusiyanın Sankt-Peterburq şəhərinin qubernatoru Georgi Poltavçenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qubernator Sankt-Peterburq şəhərilə respublikamızın ənənəvi olaraq həmişə səmimi münasibətlərinin olduğunu qeyd etməklə yanaşı əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu bildirmişdir.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev oktyabrın 1-də ölkəmizdə səfərdə olan İsrailin sabiq prezidenti Şimon Peresi qəbul edib. Söhbət zamanı Azərbaycan və İsrail arasında iqtisadi və humanitar sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

✲ ✲ ✲

Prezident İlham Əliyev oktyabrın 2-də polo idman növü üzrə Azərbaycan yığma komandasının üzvləri ilə görüşüb.

✲ ✲ ✲

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 4-də "Xəyal Adası" layihəsi çərçivəsində SABIS Sun Beynəlxalq məktəb kompleksinin və Qolf klubunun açılışında iştirak edib.

**Qüdrət SƏMƏDOV.**

# *Siyasi iradənin təntənəsi*

Qəzetimizin ötən sayında məlumat verdiyimiz kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının 70-ci sessiyası çərçivəsində 2015-ci il üzrə beynəlxalq «Cənub-Cənub» mükafatı ilə təltif olunub. Yüksək beynəlxalq mükafatın təqdim olunması mərasimində qeyd olunub ki, Prezident İlham Əliyev əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin siyasi iradəsi ilə həyata keçirilmiş Dövlət Proqramları, savadsızlığın və yoxsulluğun minimuma endirilməsi və minilliyin inkişaf məqsədlərinin uğurla reallaşması istiqamətində görülmüş tədbirlərə görə «Cənub-Cənub» mükafatı ilə təltif olunub.



Dövlətimizin başçısı möhtərəm cənab İlham Əliyevin belə mötəbər mükafata layiq görülməsi bizim hamımızın ürəyini qürur hissi ilə doldurur. Bu əsaslı qürur hissidir. Çünki dünyada maliyyə və iqtisadi böhranın, yer kürəsinin yarısından çoxunda müharibələrin, çaxnaşmaların davam etdiyi dövrdə Azərbaycan bütün parametrlər üzrə inkişaf edir. Bu inkişaf son illər qeyri-neft sektoruna da böyük investisiyalar ayırmağa imkan verib. 2015-ci ilin 7 ayında ölkəmizə 12,7 milyard manat sərmayə qoyulub. Ölkə iqtisadiyyatına qoyulmuş sərmayədə xarici investisiyanın üstünlük təşkil etməsi sübut edir ki, Azərbaycan hazırda da xarici investisiya üçün öz cəlbediciliyini qoruyub saxlayır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin başçılığı ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətdə insan amili əsas yer tutur. Əldə olunmuş yüksək sosial-iqtisadi göstəricilər nəticəsində əhalinin rifah halı yüksəlmişdir və bu proses davam edir. Azərbaycanın inkişaf tempi beynəlxalq maliyyə-iqtisadi qurumlar tərəfindən yüksək qiymətləndirilir. Bu qurumlar içərisində dünya iqtisadiyyatına təsir edə bilən Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi nüfuzlu təşkilatlar da var.

Müasir dünyamızda işsizlik problemi dünyanın əksər ölkələrinin, o cümlədən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əsas problemidir. İnsan amilini əsas tutan sosialyönümlü iqtisadi siyasət nəticəsində son illər Azərbaycanda işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb. Qeyri-neft sektorunda sahibkarlığın inkişafına göstərilən qayğı nəticəsində bu sahədə iş daha da canlanıb və cari ilin birinci yarısında Respublikamızda 60 minə yaxın yeni iş yeri açılıb ki, bunun 48 mini daimi iş yerləridir. Son 12 ildə isə ölkəmizdə 1 milyon 400 min yeni iş yeri yaradılıb.

Prezident İlham Əliyevin praqmatik, müasir dünya reallıqlarını düzgün qiymətləndirməklə apardığı siyasət nəticəsində onun həm ölkə daxilində, həm də beynəlxalq aləmdə nüfuzu yüksəlmiş, ölkə başçımıza göstərilən beynəlxalq dəstək artmışdır.

Xatırladaq ki, bir müddət əvvəl Filippində nəşr olunan və Asiya qitəsininin inkişaf etmiş ölkələrində həyata keçirilən uğurlu islahatları və dövlət başçılarının fəaliyyətini işıqlandıran "BizNewsAsia" jurnalı İlham Əliyevi "İlin adamı" elan etmişdi. Dünyanın 40 ölkəsinin 50-dən artıq universitetini təmsil edən 10 mindən artıq gənc tələbə arasında keçirilən sorğuya görə İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatı coğrafiyasında "İlin dövlət başçısı" elan edilmişdir.

Prezident İlham Əliyevin 2015-ci il üzrə beynəlxalq "Cənub-Cənub" mükafatı ilə təltif olunması da dövlət başçımıza beynəlxalq səviyyədə verilən yüksək qiymətin, habelə ölkəmizin dünyadakı nüfuzunun durmadan artmasının təsdiqidir.

**Qüdrət SƏMƏDOV.**